# ANDINA VƏFALI DAĞLAR OĞLU

***Deyirlər, dağların qoynunda dünyaya göz açan insanlar dağ əzəmətli, dağ vüqarlı olurlar. Mən bunu antiterror tədbirləri zamanı şəhid olmuş həmyerlimiz, qaşqaçaylı Nailin atası Səfərin məğrur duruşunda, qürurlu baxışlarında gördüm. Gözünün ilk nurunu, ilk övladını Vətənə qurban deyən ataların əzəmətini gördüm ürəyi oğuldağlı bu ata da...***

- Nail ilkimizdi. May ayında 20 yaşı tamam olmuşdu. Həyatda ondan heç vaxt "yox" kəlməsini eşitməmişdim. Bircə dəfə mənimlə razılaşmadı. O da əsgərlikdən qayıdandan az sonra hərbi kursa gedəndə. Çox dedim, gəl Ali Hərbi məktəbə sənəd ver, təhsil al. Sonra hərbçi kimi orduda xidmət edərsən. O isə: "Orduda xidmət etmək üçün mütləq ali təhsil almaq gərək deyil. Hərbi kurslarda hər şeyi öyrədirlər. Təki döyüşə cəsarətin, hünərin çatsın,"-dedi.

Şəhid Nail Süleymanlı 2003-cü il may ayının 23-də anadan olub. Doğma kənd məktəbinin məzunudur. Bütün kənd uşaqları kimi körpəliyindən torpağa bağlı böyüyüb. Uşaqlığı, yeniyetməliyi elə qoynunda göz açdığı əzəmətli dağların köksündə keçib. Az qala hər daşın, hər qayanın üstündə ayaq izi qalıb Nailin. Sevərdi kəndini, başı qarlı dağları. Bir də lap körpəliyindən onun silaha marağı olub. Atasının divardan asılmış ov tüfənginə həsrətlə baxardı. Kaş tez böyüyüb, bu tüfəngi əlimə götürsəydim, deyərmiş...

Məktəb illərində atıcılıq üzrə keçirilən rayon birinciliklərində həmişə yüksək nəticə göstərərdi. Gözündə qorxu olmayan Naili kənddə hamı elə beləcə, atasının qorxmaz oğlu kimi tanıyırdı. Yaşından, cüssəsindən böyük işləri görməyə çalışardı. Çalışardı kimə isə kömək etsin, kimi isə razı salsın. 2020-ci ildə orta məktəbi bitirdikdən sonra kənddə qalıb atasına təsərrüfat işlərində kömək edib.

Sentyabrın 27-də Vətən müharibəsi başlayır...

- Hamı kimi bizim ailəmiz də bu dəhşətli günün hər anını böyük həyəcanla izləyirdik. Ordumuz hər dəfə bir şəhəri, bir kəndi düşməndən təmizləyir, Prezidentimiz iftixarla azad olunmuş yerlərin adını çəkirdi. Noyabrın 8-də Şuşanın azad edildiyi gün Böyük Qələbənin zirvəsi oldu. Bu xəbəri sevinc göz yaşları ilə qarşıladıq. Biz qalib gəlmişdik... Birdən Nail yumruğunu qəzəblə stola vurdu. Anası da, mən də təəccüblə: "Ay oğul, nə oldu?-"dedik. Nail: "Mənə qalmadı. Mən and içmişdim ki, Xocalının heyfini erməni dığalarından alacam. İndi ermənilər ağ bayraq qaldırıblar,"-deyib dərin bir ah çəkdi.

2021-ci il iyulun 8-də Nail Süleymanlı həqiqi hərbi xidmətə yollanır. 2023-cü ilin yanvarında xidmətini başa vurub doğmalarının yanına qayıdır.

-Əsgərlikdən qayıdanda kəndin girəcəyində avtomobildən enib, çiyninə Azərbaycan Bayrağını salıb bir əsgər yerişi ilə kəndə girib. Bu xəbər kəndə tez yayılıb. O, evə çatana qədər qonum-qonşu qapımıza yığışmışdı. Oğlumu o gün bütün kənd qarşıladı. Sevincimin həddi-hüdudu yox idi. Bir ana üçün bunun nə demək olduğunu hər kəs bilir. Oğlum, Vətən qarşısında öz borcunu ləyaqətlə yerinə yetirib qayıtmışdı.

Bu sözləri söyləyəndə Nailin anası Təranə sanki o günlərin qürurunu yaşayırdı...

- Mənim balam elə uşaqlığından Vətən sevdalı olub. Bir görsəydiniz o Bayrağımızı necə qürurla gətirirdi...

- Əslində, o, hərbi xidmətə yararsız idi. Ayağında əyrilik, qolunda sınıq vardı. Dedim, gəlsənə, hələlik əsgərə getməyəsən. Həyatda ilk dəfə onun mənə necə qəzəblə baxdığını gördüm: "Bəlkə, mən də bəziləri kimi qorxaq adını götürüm?!"-deyib həyətə düşdü. Səhvimi başa düşüb, susdum. Dediyim sözdən çox peşiman oldum...



Əsgərlikdən gələndən hey Ordumuzun gücündən, xüsusi təyinatlı uşaqlardan danışardı. Az sonra: "Ata, mən orduya qayıdıram",- dedi. Öyrəndim ki, 3 aylıq xüsusi təyinatlıların kursunu keçib. Komandirinə söz verib ki, geri qayıdacaq. Qayıtdı da. Bilirdim, onun döyüş ruhu böyükdür. O, buralara sığan deyil. Naili yola salanda bircə onu dedim, - ehtiyatlı ol. Düşmənimiz hiyləgər və qəddardır.

Nail Cəlilabadda xüsusi təyinatlılarda xidmətini davam etdirirdi. Xüsusi təyinatlıların 23 illik yubileyi Bibiheybətdəki hərbi hissədə keçirilib. O zaman Nail də Ali Baş Komandan, Prezident İlham Əliyevlə görüşüb. Bu görüş ona çox böyük təsir etmişdi.

- Mayın 23-də Nailin 20 yaşı tamam olurdu. Qızımın toyunu o günə saldıq. Nail 3 günlük icazə alıb gəldi. Bu, onun kəndə son gəlişi oldu. Ayrılanda: "Özünüzdən muğayat olun. Hüseyn, (kiçik qardaşı) mən gələnə kimi ata-ana sənə əmanətdir",-dedi. Anası ölsün, nə bilerdim ki, balam bizimlə halallaşır.

- Sentyabrın 18-i mənim ad günüm idi. Zəng vurub təbrik etdi. Başa düşürdüm ki, səsində bir narahatlıq var. Bir onu dedi ki, az qalıb, onların axırına çıxacağıq. Döyüşdən bir gün qabaq çəkilən şəkillərini göndərmişdi. Əlində tankvuran minamyot vardı. Papağını yerə qoyub güllələrlə "Ana" kəlməsini yazmışdı. Bir şəkildə də silahının lüləsinə gül qoyub anasına göndərib. Nədənsə içimə bir qorxu düşmüşdü. Elə həmin gün telefonla danışanda bərk-bərk tapşırdım ki, oğul, ehtiyalı ol. Sizdəki top-tüfəngdən ermənidə də var. Özü də, - yaxşı ata, narahat olma,-dedi.

Bu, son zəngim, son danışığım, son nəsihətim oldu oğlumla. Sentyabrın 19-da eşitdim ki, ordumuz antiterror tədbirlərinə başlayıb. Bilirdim, öndə gedənlərin arasında Nail də olacaq. Balam arzusuna çatacaqdı. Xocalının intiqamını alacaqdı... O gecəni yuxum ərşə çəkilmişdi. Təranənin yanında da özümü tox tutmağa çalışırdım. Amma ürəyim yaman bərk döyünürdü. Tez-tez bayıra çıxır, dərindən nəfəs almağa çalışırdım. Elə bil nə isə pis xəbər alacaqdım. Sonralar öyrəndik ki, 19-u səhər əməliyyat olmalıymış. Hava şəraitinə görə günortadan sonra döyüş başlayıb. Həmin gün göndərdiyi şəkillər də döyüşqabağı çəkilibmiş. 20-si səhər xəbərlərində eşitdik ki, ordumuzun igid oğulları düşmənin əsas hərbi obyektlərini məhv edib. Artıq düşmən məhv olmaqdadır. Sevinirdik. Amma... içimi didən bir acı vardı. Bilmirdim bu, nə acıdır. Axşam tərəfi aldığım xəbər belimi qırdı: "Oğlun Şəhid olub!"

Dəfn mərasiminə uzaqdan-yaxından çox adam gəlmişdi.

Komandiri Nurlan (familiyasını unutmuşam) söylədi ki, döyüşdən qabaq biz kəşfiyyatçılar kəşfiyyat aparmalı idik. Ona görə də 20 nəfər ən qoçaq, qorxmaz döyüşçü seçdim. Nail də onların arasında idi.

Bu kəşfiyyatda Nail rabitəçi olub. Nailgilin bölüyü əsl qəhrəmanların bölüyü imiş. Onların göstərdiyi igidliyə görə həmin hissəyə "qəhrəman briqada" adı verilib.

Nail 20-si səhər saat səkkizə 10 dəqiqə işləyəndə şəhid olub. Qolundakı saat həmin dəqiqə dayanıb. Dəfndən sonra komandiri Nailin əşyalarını valideynlərinə verib. Həmişə döş cibində gəzdirdiyi kiçik ölçülü Azərbaycan Bayrağı və bir də Nailin əbədi susan saatı onun anasına son hədiyyəsi olur. Gözüyaşlı Təranə ana bu Bayrağı qoynunda saxlayır. Nailimin qoxusu var bu bayraqda, -deyir.

- Mənim oğlum həm igid, həm də ürəyi təmiz, əliaçıq idi. Yoldaşlarından birinə pul lazım olub. Öz adına kredit götürüb verib yoldaşına. Hər maaşından kəndimizdəki kasıb ailələrə pul göndərərdi. Heç vaxt atasından kömək istəməzdi. Maşın almaq istəyirdi. Atası ona deyəndə ki, gəl mən də pul verim, yaxşı bir maşın al. Qəti etiraz etdi ki, öz pulum nəyə çatır onu da alcam. Nail çox qürurlu idi.

Nailgildə olanda bacısı Natəvan da ata evində idi. Kənarda əyləşib, elə hey göz yaşı tökən Natəvan dinib-danışmasa da sel olub axan göz yaşları bir bacının içində hayqırdığı qardaş harayı idi:

*Bacılar yanar ağlar*
*Dərdini sanar ağlar*
*Dönər göy göyərçinə*
*Yollara qonar ağlar,*

...Hər gün yuxularında bacısının əlindən tutan Nailin bircə arzusu olub: "Erməni dığalarına vay tutmaq. Torpaqlarımızı işğaldan azad etmək."

Torpaqlarımız işğaldan azad edildi. Nail kimi şəhid oğullarımızın arzuları çin oldu. Vətən sizi unutmaz. Hər bir şəhidimiz ölkə Prezidenti İlham Əliyevin sərəncamı ilə təltif edilib. Nail Süleymanlı 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif olunub.

"Vətən sağ olsun",- deyib canlarını Vətənə fəda edən oğullar, bu xalq, bu Vətən sizləri unutmayacaqdır!

**Xavər Əfəndiyeva,**
**"Şəlalə" qəzetinin redaktoru**